Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

# Ermənistanın Sərsəng ekoloji terroruna son qoyuldu...

**Ermənistanın törətdiyi ekoloji terrorun miqyası o qədər genişdir ki, onu tez bir zamanda aradan qaldırmaq çox çətindir. Azərbaycan uzun illər Ermənistanın törətdiyi su terrorundan da əziyyət çəkib. Ermənistan Sərsəng su anbarını işğalda saxladığı dövrlərdə suyun tərkibini istifadəsi mümkün olmayan hala gətirib.**



Məlumatlara görə, Sərsəng respublikada bəndinin hündürlüyünə görə ən yüksək su anbarıdır. Sərsəng su anbarı ərazilərimizin işğalından əvvəl respublikanın 6 rayonunun (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Ərazilərin işğalından sonra anbarın suyunun istifadəsinin mümkün olmaması nəticəsində kənd təsərrüfatı bitkilərinə suvarma suyunun verilməməsi respublikanın bu regionuna əvəz olunmaz zərər vurmuşdur. Sərsəng uzun illər işğalda qaldıqdan sonra nəhayət ki, azad oldu. Azərbaycanın bölgədə keçirdiyi lokal antiterror tədbirləri nəticəsində Sərsəngin tam Azərbayanın nəzarətinə keçdiyi məlumdur. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin yaydığı məlumata görə, Agentliyin əməkdaşları artıq Sərsəng su anbarına nəzarət edir.

### Sərsəng su anbarı artıq bizim nəzarətimizdədir...

1976-cı ildə Tərtərçayın üzərində tikilmiş Sərsəng su anbarının ümumi həcmi 565 milyon kubmetr, faydalı həcmi 500 milyon kubmetrdir. Anbarın su güzgüsünün sahəsi 1 346 hektar, sahil xəttinin uzunluğu 50,25 km-dir.

Sərsəng su anbarında toplanan su ilə Tərtər, Ağdərə, Ağdam, Ağcabədi, Yevlax, Bərdə, Goranboy rayonlarının ümumilikdə 95 min hektar əkin sahəsi suvarma suyu ilə təmin olunacaq.

Məlumatlara görə, Qarabağda ümumilikdə 24 su anbarı olub. 22 meliorasiya təyinatlı su anbarından 7-si, eyni zamanda balıqçılıq məqsədləri üçün istifadə edilir. 2 su anbarı isə enerji mənbəyi təyinatlıdır.

Qeyd olunur ki, şirin su mənbələrinin tükənməsi, su mənbələrinə ədalətsiz müdaxilə və su ehtiyatları üzərində məqsədli nəzarət müasir təhdidlərdir. Buna görə su ehtiyatlarını yerdən və havadan etibarlı şəkildə müdafiə etmək, onları qorumaq, düşmən nəzarəti altında olan su mənbələrini isə mümkün qədər az zədələnmə ilə azad etmək vacibdir.

Ermənistan əvvəllər Azərbaycanı Sərsəng su anbarına qarşı təxribat törədəcəyi, onu vuracağı ilə təhdid edirdi, amma nəticə göstərdi ki, onun bu məkri tamamilə iflasa uğradı. Məlumdur ki, Ermənistan ordusunun əvvəllər Tərtər çayına buraxılan suyun miqdarını tənzimləməklə bundan Azərbaycana qarşı təzyiq vasitəsi kimi də istifadə etməsi beynəlxalq ictimaiyyətə məlum idi, lakin buna qarşı hgər hansı bir tədbir görülmədi.

### Su anbarının tamamilə azad olunması Ermənistanın su terroruna bu istiqamətdə son qoyub

Azərbaycan dövləti, vətəndaş cəmiyyəti institutları, mətbuat, ictimai-siyasi xadimlər uzun illər Sərsəng su anbarının vəziyyəti ilə bağlı beynəlxalq ictimaiyyətə, qurumlara müraciətlər edirdilər, amma təəssüf ki, onlar Ermənistanın bu terrorunun qarşısını almaq istəmirdilər. Uzun illər Ermənistanın terroru nəticəsində bölgədə əkin sahələrinin suvarılması sahəsində ciddi problemlər mövcud idi. Amma Sərsəng su anbarının tamamilə Azərbaycanın nəzarətinə keçməsi artıq probelmlərə son qoyacaq. Ümumiyyətlə, su anbarının tamamilə azad olması Ermənistanın su terroruna bu istiqamətdə son qoyub.

Müasir İnkişaf Birliyinin sədri Mübariz Göyüşlü "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Sərsəng su anbarı işğalda olduğu dövrdə ermənilər tərəfinin qəzalı vəziyyətdə salınıb. O, vurğuladı ki, Sərsəng Su anbarının tamamilə Azərbaycanıln nəzarətinə keçməsi çox mühüm bir hadisədir. "Düşünürəm ki, torpaqlarımızın, maddi-mədəniyyət abidələrimizin, xalqımıza məxsus olan bütün sərvətlərin erməni vandallarının tapdağından azad edilməsinin ən üstün tərəfi psixoloji tərəfidir. Əvvəl məğlub xalq idik və o psixologiya il yaşayırdıq. İndi isə qalib xalqıq və bütün sərvəitlərimizə yenidən sahiblənmiik, bunu şanlı ordunmuz bizə qaytarıb. Bundan böyük xoşbəxlik ola bilməz. Sərsəng su anbarının Azərbaycanın nəzarətinə keçməsi çox mühüm hadisədir. Sərsəng su anbarı Ermənistanın işğalında olduğu vaxtlarda ona qarşı ekoloji terror həyata keçirilib. Bilirsiz ki, o dövrdə ciddi su qıtlığı baş verdi. Bilirsiz ki, bu gün su qıtlığı Azərbaycanı və bütün dünyanı təhdid edir. Belə bir vaxtda Sərsəng su anbarının tam olaraq azad edilməsi çox mühüm əhəmiyyət daşıyır. Bu xalqımızın rifahı naminə atılmış faydalı bir addımdır"-deyə M.Göyüşlü qeyd etdi.

M.Göyüşlü əlavə etdi ki, bu artıq suvarma sahəsində yaranan ciddi problemin aradan qalxmasına təkan olacaq, kəndlərimizin, qəsəbələrimizin su təminatı genişlənəcək. Ermənistanın su terrorunun artıq arxada qaldığını deyən M.öyüşlü hesab edir ki, Azərbaycan özü bu problemin öhtəsindən gəldi: "Hesab edirəm ki, Sərsəng su anbarının Azərbaycanın nəzarətinə keçməsi strateji, ekololji, psixoloji baxımdan çox böyük tarixi hadisədir. Çox möhtəşəm bir haldır ki, biz bu tarixi ahdisələri yaşayırıq. Bundan sonra Sərsəng su anbarı hesabına Azərbaycan dövləti su ilə bağlı problemi həll edəcək".

M.Göyüşlü qeyd etdi ki, Azərbaycan Sərsəngi tam nəzarətə götürməklə bölgəni erməni terrorundan xilas etdi. Onun fikrincə, Sərsəngin azad olması onu göstərdi ki, davam etməkdə olan böyük bir ekoloji terrorun qarşısını Azərbaycan aldı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**